https://doi.org/10.59849/3006-1342.2025.2.95
UOT 94(479.24)

*İlahə Arif qızı Əsədzadə*
*AMEA Gəncə bölməsi Diyarşünaslıq İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: ilahe.esedzade@gmail.com*
*https://orcid.org/0009-0007-1288-3719*
*Nuranə Zöhrab qızı Qənbərova*
*AMEA Gəncə bölməsi Diyarşünaslıq İnstitutu*
*Laborant*
*E-mail: hesenova.nurane.099@gmail.com*

# QARABAĞ XANLIĞININ QONŞU DÖVLƏTLƏRLƏ MÜNASİBƏTİ

*Məqalədə Qarabağ xanlığının meydana gəlməsi, həmçinin xanlığın banisi Pənahəli xanın Şəki xanı Hacı Çələbi ilə münasibətindən bəhs olunur. Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Ərdəbil xanlıqlarını öz tərəfinə çəkməyi bacaran xan öz hakimiyyətini daha da gücləndirməyə nail olmuşdu. Həmçinin, Urmiyalı Fətəli xan Əfşarın o cümlədən, Kərim xan Zəndin və Ağa Məhəmməd şah Qacarın xanlığın ərazisinə yürüşləri kimi məsələlərə də toxunulmuşdur.*

*Açar sözlər:* Qarabağ xanlığı, Pənahəli xan, Şəki xanlığı, Urmiya xanlığı, Kərim xan Zənd, Məhəmmədhəsən xan Qacar

## *Giriş*

XVII əsrdə Qarabağ ərazisi bütövlükdə Qarabağ bəylərbəylərinin idarəsində idi. XVIII əsrin 20-ci illərində ərazisinin xeyli hissəsi əfqan hücumuna məruz qalmış Səfəvi imperiyasının digər bir hissəsi isə Osmanlı imperiyasının və Rusiyanın işğalı altına düşmüşdü. Həmin dövrdə görkəmli Azərbaycan sərkərdəsi Nadir xan Əfşar İranda mərkəzi hakimiyyəti ələ keçirərək əfqanları və osmanlıları məğlubiyyətə uğratmış, həmçinin, Qarabağ bəylərbəyiliyi də yadelli işğalından azad olunmuşdu. XVIII yüzilliyin 30-cu illərinin ortalarında Səfəvi imperiyasının hakimiyyətinə son qoyaraq hakimiyyəti ələ keçirməyə çalışan Nadir xan Əfşarın topladığı qurultayda onun şah elan edilməsi üçün öncədən tədbirlər görülmüşdü. Ancaq 1736-cı ildə Muğanda təşkil olunan tacqoyma mərasimində Qarabağın ziyadoğlu, iyirmidörd, otuzikilər, Cavanşir kimi tayfaları Nadir xanın namizədliyinin əleyhinə çıxmış, taxta ancaq Səfəvilər nəslindən olan nümayəndənin çıxa biləcəyini təkid etmişdilər. Sırf bu səbəbdən də Nadir şah taxta çıxdıqdan sonra onları cəzalandırmağı qərara alır. Ona qarşı olan tayfaları Xorasanın Sərəxs mahalına və Əfqanıstan sərhədlərinə sürgünə göndərdi [1, s. 248].

**Qarabağ xanlığının meydana gəlmə şəraiti.** Nadir şaha müxalif mövqedə dayanan, Qarabağın qədim və güclü tayfalarından olan "Otuzikilər" tayfa birliyi otuz iki oymaqdan ibarət olduğuna görə belə adlanırdı. Həmin tayfa birləşməsinin daxilində Cavanşirlərin nümayəndələri də var idi. Tarixçilərin fikrinə görə, Cavanşirlər Hülakü xanın dövründə Anadoluya, Əmir Teymurun dönəmində isə Qarabağa köçürülmüş türk tayfalarıdır [18, s. 19]. Onların yaşadıqları oymaqlardan biri də Dizaq vilayətində yerləşən Sarıcalı oymağı idi. Rəvayətə görə, bu oymağın adı onun əsasını qoyan Sarıca Əlinin adı ilə bağlıdır. Onun varislərindən olan İbrahimxəlil ağa öz sərvətini çoxaltmağa və mülklərini xeyli genişləndirməyə nail olmuşdu. İbrahimxəlil ağanın böyük oğlu Fəzləli bəy (Əhməd bəy Cavanşir onun adını Behbudəli kimi göstərir) [11, s. 158]. Nadir şahın sarayında eşikağası

vəzifəsinə təyin olunmuş, ancaq hansısa səbəbə görə şahın qəzəbinə düçar olaraq qətlə yetirilmişdi [15, s. 3]. Fəzləli bəyin digər qardaşı Pənahəli bəy isə onun yerinə eşikağası vəzifəsinə təyin olunmağına baxmayaraq, qardaşının aqibətini xatırlayaraq 6 nəfər qohumu ilə birgə sarayı tərk etdi [8, s. 158]. Tezliklə iyirmi minlik heyətdən ibarət Cavanşir-Otuzikilər tayfasının başında dayanan Pənahəli xan İran əsarətinə qarşı mübarizə aparan üsyançı dəstəyə başçılıq etməyə başladı [2]. Müəyyən müddət sonra bu zaman təqribən on beş yaşında olan böyük oğlu İbrahimxəlil ağa da Qarabağa - Pənahəli bəyin yanına gəldi [13]. 1747-ci il iyunun 19-dan 20-yə keçən gecə Nadir şah qətlə yetirildikdən sonra İranda mərkəzi hakimiyyət iflic vəziyyətə düşmüş, imperiya ucqarlarının müstəqilləşməsi üçün imkan yaranmışdı. Həmin dövrdə Azərbaycanda yaranan 20-ə qədər müstəqil və yarımmüstəqil xanlıqlardan biri də əsasını Pənahəli bəyin qoyduğu Qarabağ xanlığı idi. 200-ə yaxın süvari ilə birgə Qarabağa gəlib özünü xan elan edən Pənahəli bəy Xorasana köçürülmüş Cavanşir və başqa elat tayfalarının vətənə qayıtdıqlarını eşidib öz ətrafındakı dəstələrlə birlikdə Qarabağ ellərini qarşılamaq üçün İran sərhədinə kimi getdi. Köçkünlər əvvəlki yurdlarında məskunlaşdılar. Ellərin camaatı var-yoxdan çıxmış, soyulmuş, əziyyət çəkmiş və yoxsul olduqlarına görə Pənahəli xan Şirvan, Şəki, Gəncə, İrəvan və Qarabağın ətraf ellərdən topladığı qənimətlərlə soydaşlarının maddi vəziyyətini bir qədər yaxşılaşdırdı.

Əgər Azərbaycan xanlıqlarının hər biri hansısa şəhərin ətrafında təşəkkül tapmışdısa, Qarabağ xanlığı ərazisində mərkəz, təhlükə zamanı sığınacaq rolu oynayacaq əhəmiyyətli bir yaşayış məntəqəsi mövcud deyildi. Buna görə də xanın ilk işi etibarlı bir qala inşa etdirmək oldu. Hələ Qarabağın Xəmsə[3] mahalları ona tabe olmadığı halda Pənah xan ətraf xanların onun üzərinə hücum edəcəkləri təqdirdə ailə və qohumlarının, qulluqçu və yaxın adamlarının və əhalinin qorunması üçün münasib bir yerdə qala tikilməsini lazım bilmişdi. Məşvərətdən sonra, 1748-ci ildə indiki Kəbirli mahalı içində olan Bayat qalasının əsası qoyuldu [17, s. 34]. Qısa müddətdə möhkəm hasar tikildi, xəndək qazıldı, bazar, hamam və məscid inşa edildi. Xan, bütün ailəsinin, qohumlarının və el böyüklərinin əhli-əyalını oraya köçürdü. Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil mahallarının bir çox əhalisi və sənətkarları belə öz ailələri ilə birlikdə gəlib Bayat qalasında yerləşdilər [15, s. 111-112]. O dövrün hərbi istehkam inşası tələblərinə uyğun olaraq qala dərin xəndək və bişmiş kərpicdən tikilmiş divarlarla əhatələnmişdi.

**Pənahəli xanın Şəki və Gəncə xanlıqları ilə əlaqələri.** Bayat qalasının inşası Qarabağ məliklərini və Qarabağı özünə tabe etmək xülyasına düşmüş şəkili Hacı Çələbi xanı narahat edirdi. Digər tərəfdən məliklər siyasi müstəqillik istəyirdilər və buna görə də Pənahəli xanın güclənərək öz hakimiyyətini bütün Qarabağ ərazisinə yaymasına qarşı müqavimət göstərirdilər. Onlar güclü hərbi qüvvəyə sahib Hacı Çələbini Pənahəli xana qarşı çıxmağa təhrik edə bildilər. Hacı Çələbi bir neçə başqa feodal hakimlə birgə Qarabağ xanlığına basqın etməyi qərara alır. Pənahəli xan isə öncədən bütün elatı Bayat qalasına toplamışdı [17, s. 34]. O, hər iki-üç gündən bir atlı dəstə ilə qaladan çıxaraq düşmənə qəfil hücumlar edirdi. Hətta Bayat qalası yanında baş vermiş bir qanlı döyüşdə Pənahəli xanın Hacı Çələbi xanı tamamilə məğlub etdiyi qeyd edilir.

Şirvan və Şəki xanları isə heç bir iş görə bilmədilər. Bir aydan artıq çəkən mühasirədə hər gün qoşunlarının məhv olunmasının at və ulaqlarının qarət olunmasını görən xanlar peşman halda çıxıb getdilər və hər kəs öz vilayətinə döndü. Zəmanəsinin kamil şəxslərindən olan Şəki vilayətinin hakimi Hacı Çələbi qayıdan zaman bu sözləri demişdi: "Pənahəli xan bir xan idi. Biz gəldik onunla savaşdıq və bir iş belə görə bilmədik. İndi biz onu şah edib

[3] Xəmsə - əvvəllər Qarabağ bəylərbəyliyi, sonra isə Qarabağ xanlığı tərkibində olan beş xristian məlikliyinin XVII—XVIII əsrlərdə işlənilən ümumi adıdır. Ərəb dilində " xəms " ("beş") sözündən əmələ gəlmiş və «beşlik» deməkdir.

dönürük". Daha sonra Pənahəli xan sürgündən qayıdan qohum-əqrəbasından ibarət böyük bir dəstə ilə Hacı Çələbinin üzərinə yenidən hücüm etdi. O, Hacı Çələbinin dəstələri ilə ilk döyüşdə tezliklə nuxalıları təmamilə sıxışdırıb Kürün o tayına atmağı bacardı. Ancaq böyük qüvvə ilə özünü çatdıran Hacı Çələbi onu öz dəstəsi ilə birgə Bayat qalasında mühasirəyə aldı. Əgər kiçikdən böyüyə qədər bütün qohumları köməyə gəlməsəydi Pənəhəli xan bu bəladan qurtula bilməyəcəkdi. Pənahəli xan yardıma gələn qüvvələrin köməyi ilə qalanın divarları yaxınlığında baş vermiş döyüşdə Hacı Çələbini təmamilə məğlubiyyətə düçar etdi.

Beləliklə, Bayat savaşı göstərdi ki, xanlığa daha etibarlı qala lazımdır. Bayatın strateji mövqeyi zəif, iqlimi isti olduğundan burada uzun müddətə böyük hərbi qüvvə saxlamaq mümkün deyildi. Bu səbəbdən Pənahəli xan Təməkütdə "Şahbulaq" adı ilə tanınan qala inşa etdirdi. Şahbulaq qalası 1165-ci hicri ilində (20 noyabr 1751-ci il - 7 noyabr 1752-ci ildə) inşa edilmişdir. Bu yerlər vaxtilə I Şah Abbasın qışlağı olmuşdu [6, s. 364]. Yeni iqamətgaha köçən Pənahəli xan Bayat qalasının dağıdılması haqqında göstəriş verdi. Eyni zamanda, xan iqamətgahının köçürülməsinin səbəbini belə izah etmək olar: Bayat qalası aranda yerləşdiyi üçün yay fəslində elatlar o ətrafda yaşamayıb yaylağa köçdüyünə görə "lazım olanda onlara əl yetişmirdi" [14, s. 115] Pənahəli xan Gəncəyə hücum edib şəhərin bir hissəsini işğal etdi. Gəncəli Şahverdi xan Şəki xanı Hacı Çələbini və carlıları yardıma çağırsa da, Pənahəli xan onlarla razılaşıb geri qayıtmalarına nail olmuşdu. Çıxılmaz vəziyyətdə qalan Şahverdi xan gürcü çarları I Teymuraz və II İraklidən yardım istədi. Qarabağ xanının Gəncəni tutduqdan sonra gürcülərin zəbt etdikləri Qazax və Borçalını tələb edəcəyindən narahat olan çarlar Şahverdi xanın köməyinə gəldilər. Vəziyyətin gərginləşdiyini görən Pənahəli xan Şahverdi xandan 450 tümən bac alıb geri qayıtdı [12, s. 39]. Daha sonra Qaradağ, Ərdəbil və Naxçıvan xanlarını öz təsiri altına alan Qarabağ xanı mülklərini cənub-şərqə və cənub-qərbə tərəf genişləndirərək Tatev, Sisyan, Qafan, Mehri mahallarını özündən asılı hala saldı. Xan nüfuzunun artması ilə Şamaxı, Şəki, Gəncə, İrəvan, Naxçıvan xanlıqlarından və Kartli-Kaxetya çarlığından Pənahəli xana onunla müttəfiq olmaq istəkləri ilə bağlı məktublar gəlirdi. Pənahəli xan zamanla daha da qüvvətlənərək Mehri, Güney mahallarını, Bərgüşada qədər olan əraziləri Qaradağ hakimindən alıb özünə tabe etdi. Həmçinin, Gəncə hakimlərinə məxsus və Xudafərin körpüsündən Kürək çayına qədər olan yerləri də əlinə keçirdi [17, s. 35-36].

Beləliklə, xanlıq şimal-qərbdə Kürəkçay və Qaraçayadək Gəncə xanlığı ilə, cənub-qərbdə Naxçıvan xanlığı ilə, qərbdə İrəvan xanlığı ilə sərhəddə yerləşirdi. Şimal-qərbdə Kür çayı boyunca Şəki xanlığı ilə həmsərhəd olan xanlıq, şərqdə isə yenə Kür çayı boyunca Şamaxı xanlığı ilə həmsərhəd idi. Bir daha aydın olur ki, Kiçik Qafqazın cənub-şərq çıxıntısında yerləşən Qarabağ xanlığı Azərbaycan ərazisinin vacib əhəmiyyətli hissəsini əhatə edirdi.

Azərbaycanın digər ərazilərində Pənahəli xanın öz hakimiyyətini möhkəmləndirməsində əsas maneə şəkili Hacı Çələbi xanı idi. Xan bu səbəbdən təsiri altında olan qaradağlı Kazım xanı, naxçıvanlı Heydərqulu xanı, gəncəli Şahverdi xanı yanına çağırdı və Hacı Çələbiyə qarşı ittifaq təklif etdi. Xanlar bu işə Azərbaycan torpaqlarında çoxdan marağı olan Kartli çarı II İraklini də cəlb etməyi qərara aldılar. Öncədən əldə edilmiş razılığa əsasən, Azərbaycan xanları ilə Teymuraz və II İrakli Gəncə yaxınlığında görüşməli və burada öz qüvvələrini birləşdirərək Şəki xanlığına yürüş təşkil etməli idilər. Ancaq gürcü çarları 1752-ci ildə gözlənilmədən xanların dördünü də əsir götürdü Şahverdi xanın çaparı tezliklə bu barədə Hacı Çələbi xana xəbər çatdırdı. Bu haqda eşidən Hacı Çələbi böyük igidlik göstərərək, əsir alınmış Azərbaycan xanlarını azad etmək üçün yola düşdü. Kür çayını keçib Gəncəyə tərəf hərəkətə başlayan qoşun Nizami Gəncəvinin məqbərəsi yaxınlığında baş vermiş həlledici döyüşdə gürcüləri tam məğlubiyyətə uğratdı. Əsir alınmış xanlar azad edildilər və öz yurdlarına geri qayıtdılar.

**Qarabağ xanlığının Urmiya xanlığı və Kərim xan Zənd ilə münasibətləri.** Şəki xanlığına qarşı ittifaqda iştirak edən Qarabağ xanlığının qüdrətləndiyi bir zamanda - XVIII əsrin 50-ci illərinin ortalarında İranda şah taxtı uğrunda bütün kəskinliyi ilə davam edən mübarizədə əsasən Astrabad və Mazandaran hakimi Məhəmmədhəsən xan Qacar, Urmiya xanı Fətəli xan Əfşar və Şiraz hakimi Kərim xan Zənd fərqlənirdi. Məlum idi ki, iddiaçılar Qarabağı da rahat buraxmayacaqdılar. Pənahəli xan Qarabağ xanlığının təsiri altında olan və bundan xilas olmaq istəyən Gəncə hakimi Şahverdi xan Ziyadoğlunun öz qohumu Məhəmmədhəsən xanı Qarabağa yürüşə təhrik edəcəyindən daha çox ehtiyat edirdi. Pənahəli xan Məhəmmədhəsən xan kimi qüdrətli düşmənin basqınına məruz qalmamaq məqsədi ilə daha möhkəm bir sığınacaq inşa etmək qərarına gələn xan yaxın adamlarını toplayıb məşvərət keçirdi. O, Qarabağa basqın olacağı halda Şahbulaq qalasının davam gətirəcəyini şübhə altına alaraq düşmənə müqavimət göstərə biləcək, dağların qoynunda möhkəm, keçilməz və sarsılmaz qala tikməyi təklif etdi. Xanın fikrincə, qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla əlaqə kəsilməməli idi [15, s. 115-116].

Pənah xan hüzurunda olan əmirlərin məsləhətlərinə qulaq verib Şuşa şəhərini qala etmək qərarına gəldi. Şəhərin qala olacağı yerdə axar su və bulaq yox idi. Yoxlamaq üçün bir neçə quyu qazıldı. Həmin quyulardan su çıxandan sonra, 1170-ci ildə (miladi təqviminə görə 1756-1757-ci illər) Şuşa şəhərinin əsasını qoydular. Şahbulağı qalası sakinlərini və bir sıra kənd sakinlərini yeni qalaya köçürtdülər. Qalanın tikilişindən biraz sonra - 1757-ci ildə İran şahı taxtına ən güclü namizəd olan Məhəmmədhəsən xan Qacar Qarabağa basqın etdi. Bəzi mənbələr səhvliyə yol verərək Məhəmmədhəsən xanın Qarabağa hücumunun 1751-ci ildə baş verdiyini yazsalar da, bu yanlışdır. Şəhərin inşa edilməsindən bir il keçdikdən sonra, Ağa Məhəmməd şahın atası Məhəmmədhəsən xan Qacar Astrabad, Mazandaran və Gilan vilayətlərindən qoşun toplayaraq Şuşa şəhərini almaq məqsədilə hərəkət etdi və Xatın arxında dayandı. Ancaq Məhəmmədhəsən xan bir ay burada qalsa da qalaya yaxınlaşmaq mümkün olmadı. Pənahəli xan ellərdən və kəndlərdən döyüş qabiliyyətli kişiləri qalaya toplayaraq müdafiəyə hazırlaşmışdı. Beləliklə, Məhəmmədhəsən xan təxminən bir ay Şuşa ətrafında qalsa da, heç bir uğur qazana bilmədi [16, s. 49-50]. Məhəmmədhəsən xan Qacar bu zaman Kərim xan Zəndin tərəqqi və istila səsini eşitdi. Öz toplarını Xatın arxında qoyaraq qayıtmaq məcburiyyətində qaldı və Pənahəli xan həmin topları qalaya gətirdi [17, s. 40-41].

Bir müddət keçdikdən sonra urmiyalı Fətəli xan Əfşar bütün Cənubi Azərbaycanı ələ keçirdi və öz hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymaq qərarına gəldi. O, ilk öncə mühüm strateji əhəmiyyəti olan Qarabağ xanlığını ələ keçirməyə cəhd göstərdi [5, s. 158]. Pənahəli xan yanına elçi göndərərək itaət göstərməsini tələb edən və kobud şəkildə rədd cavabı alan Fətəli xan 1759-cu ildə böyük qoşun toplayıb Qarabağa hərəkət edərək Şuşa qalası yaxınlığında düşərgə saldı. Pənahəli xana qarşı gizli düşmənçiliyi davam etdirən Çiləbörd və Talış məlikləri Fətəli xanın yanına gedərək Pənahəli xanın müdafiəyə yaxşı hazırlaşdığını bildirdilər. Şuşa qalasının möhkəmliyini görən Fətəli xan şəhərin altı kilometrliyində - Ballıca və Xocalı çayları arasında qoşunların uzun zaman qala bilməsi üçün istehkam inşa etdirdi.

Fətəli xan döyüşlərin birində iki min döyüşçü itirdi. Qış fəslinin də yaxınlaşdığını görən xan sülh və barışıq təklif etdi: "Əgər Pənahəli xan əsirləri geri qaytarsa, mənlə ittifaq və dostluq etsə, qızımın kəbinini onun böyük oğlu İbrahimxəlil ağaya kəsdirəcəyəm. Beləliklə, biz əbədi qohum və dost olacayıq". Pənahəli xanı xatircəm etmək üçün Fətəli xan hətta öz övlad və qohumlarından üç nəfəri girov olaraq Şuşaya, Fətəli xana inanan Pənahəli xan isə öz oğlunu onun yanına göndərmişdi. Çünki Fətəli xanın qoşunları tədricən qalaya yaxınlaşır, qalaya gedən yollar bağlandığına görə orada azuqə və hərbi sursat azalırdı, şəhər süqut etmək təhlükəsi qarşısında idi. Pənahəli xan isə vəziyyətdən çıxış yolunu zahiri itaət göstərməkdə görüb, öz oğlu İbrahimxəlil ağanı girov olaraq Fətəli xan Əfşarın düşərgəsinə göndərmişdi.

Hadisələrin gedişindən məlum olur ki, Qarabağ xanının urmiyalı Fətəli xandan asılılığı uzun müddətli olmadı. Belə ki, Fətəli xan Qarabağda olduğu zaman taxt-taca digər iddiaçı Kərim xan Zənd qüvvələrini toplayıb İsfahan və Şiraz şəhərlərini tutdu. 1760-cı ilin payızında isə Kərim xanın Cənubi Azərbaycana hücumu urmiyalı Fətəli xanı öz qüvvələrini Azərbaycanın cənubuna yönəltməyə təşviq etdi. 1761-ci ilin yayında Fətəli xan və Kərim xan Zənd Ucan düzündə, Qaraçəmən kəndi yaxınlığında qarşılaşdı. Baş verən döyüşdə üstünlük öncə Fətəli xanın tərəfində olsa da, müttəfiqi xoylu Şahbaz xanın xəyanət edərək düşmən tərəfə keçməsi onu çətin vəziyyətə saldı. Nəticədə Fətəli xan Urmiya qalasına çəkilməli oldu (Dəlili H.Ə. Azərbaycanm cənub xanlıqları XVIII əsrin ikinci yarısında. Bakı, Elm, 1979, s. 144. Hacıyeva. 19, s. 119-120). Fətəli xana qarşı mübarizədə Kərim xan urmiyalı hakimlə ədavətdə olan bir sıra Azərbaycan xanlarının, o cümlədən Pənah xanın qüvvəsindən istifadə etdi. Kərim xanın çağırışını qəbul edən Pənahəli xan kiçik oğlu Mehrəli bəyi Qarabağa müvəqqəti hakim təyin edərək, digər Azərbaycan xanları kimi Kərim xanın düşərgəsinə gəldi. Xanların qüvvələri ilə birləşən Kərim xan Urmiya qalasını mühasirəyə aldı. 9 aylıq mühasirədən sonra Urmiya qalası təslim oldu. Əsir alınan Fətəli xanı özü ilə aparıb, İsfahan yaxınlığında öldürən Kərim xan eyni zamanda, köməyinə gəlmiş Pənahəli xanı və digər Azərbaycan xanlarını qələbəni qeyd etmək üçün Şirazda keçiriləcək şənliyə dəvət etdi. Əslində isə bu dəvəti qəbul etdirməklə Kərim xan sözügedən şəxsləri Şirazda girov kimi saxlaya bildi və onların özündən asılılığını təmin etmiş oldu [10, s. 144]. Şirazda girov vəziyyətində olan Pənahəli xan tezliklə dünyasını dəyişdi.

Kərim xan Zənd Urmiyanı ələ keçirdiyi zaman burada əsir olan İbrahimxəlil ağanı azad etmiş, onu Qarabağa göndərmişdi [3, s. 164]. İbrahimxəlil ağa Qarabağa dönərək böyük qardaş olduğuna görə xan taxtının ona verilməsini tələb edir. Mehrəli bəy yardım üçün Kərim xan Zəndin yanına gedir, bir müddət sonra isə o, İbrahimxəlil xanın rəqibi qubalı Fətəli xana pənah aparır.

Fətəli xan isə Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizədə qarabağlı İbrahimxəlil xana rəqib kimi baxırdı. Məhz buna görə də o, Qarabağa dəfələrlə hərbi yürüşlər etmişdi. Ən böyük yürüşlərdən biri 1783-cü ilin əvvəlində baş verdi. Təkcə muzdlu döyüşçülərin sayı 13 min nəfərə çatırdı. İbrahimxəlil xan Şuşa qalasında möhkəmlənmişdi. Fətəli xan isə Şuşanı ala bilməyəcəyini düşünüb ətraf kəndləri qarət edir və xeyli əsir götürərək geri döndü [19]. Mehrəli bəy isə 1785-ci ildə qubalı Fətəli xanın düşməni şamaxılı Ağası xan tərəfindən qətlə yetirdi.

1795-ci ildə Qarabağ daha qüdrətli düşmənin - Ağa Məhəmməd şah Qacarın basqınına məruz qaldı. Lakin qarabağlılar mərdliklə müqavimət göstərirdilər. Rus mayoru Manevgen Qudoviçə göndərdiyi 15 avqust 1795-ci il tarixli məlumatda qeyd edir ki, Ağa Məhəmməd xan Şuşanı mühasirədə saxlayır, amma hər gün qaladan Qacar qoşunlarına həmlələr edilirdi [7, s. 257]. Qalanı 33 gün mühasirədə saxlasa belə, Ağa Məhəmməd şah Şuşanı tuta bilmədi və Tiflisə yollandı. 1796-cı ildə özünü şah elan edən Ağa Məhəmməd təkrar Şuşaya hücuma hazırlaşırdı. O, bir sıra xanlardan sığınacaq istədiyi halda İbrahimxəlil xana rədd cavabı verməlerini tələb etmişdi 1797-ci ildə Qarabağa ikinci yürüş zamanı Ağa Məhəmməd şah Şuşa qalasını mühasirəyə aldı və sonra "Dövtələb” adlanan meşəlikdən qalanı dayanmadan top atəşlərinə tutdu [4, s. 12]. Ağa Məhəmməd şahın topçu mütəxəssisi Həmid Ulteyin başçılığı ilə topçular gündüzlər Şuşa qalasının divarlarını dağıdır, şəhər sakinləri isə gecə düşən kimi onu təmir edib düzəldirdi. Şahın əmri ilə gecələr qala divarlarına yaxın böyük məşəllər yandırılırdı. Şuşalılar atəşlə məşəl tutanları vurub öldürürdülər. Amma onların qəhrəmanlıqla müqavimət göstərməsinə baxmayaraq, Qacarın topları qala divarlarını dağıdırdı [9]. İbrahimxəlil xan qala divarlarının dağıdıldığını gördükdə qalada olan əhalinin şəhəri tərk etməsinə icazə vermiş, gecə döyuşçülərindən ən qoçaq 200 nəfər götürüb qaladan çıxaraq, düşmənin arxasına keçmişdi. Qarabağ hakimi geri dönmək istədikdə yolların

bağlandığını gördü. Xan özünün yanlış etdiyini başa düşdü, şəhər müdafıəsini başçısı olaraq qalanı tərk etdiyinə təəssüfləndi. İbrahimxəlil xan Şuşadan çıxdıqdan sonra başsız qalmış qala təslim oldu. Bir neçə gündən sonra Ağa Məhəmməd şah saray sui-qəsdi nəticəsində Şuşada qətlə yetirildi. Onun qoşunu pərən-pərən olub geriyə döndü [8, s. 169-174].

*Nəticə*

Göründüyü kimi, xanlıqlar dövrü Azərbaycan tarixində feodal dağınıqlığı və ara müharibələri dövrü kimi səciyyəvidir. Hakim xanlar bir-birləri ilə mübarizə aparıb ərazilərini genişləndirməyə çalışmış, müəyyən vaxtdan sonra isə Azərbaycan torpaqlarının birləşdirilməsinə can atmışdılar. Bu cəhətdən Pənahəli xanın da təşəbbüsləri təqdirəlayiqdir. Xan Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Ərdəbil xanlıqlarını öz tərəfinə çəkməyi bacarsa da, təəssüf ki, istənilən nəticəni ala bilmədi. Ümumiyyətlə, Azərbaycan torpaqlarını vahid halda birləşdirmək istəyən digər xanlar kimi Qarabağ xanı da digər hakimlərin ciddi müqaviməti ilə üzləşdi. Şuşa qalasına Məhəmmədhəsən xan Qacarın yürüşünü uğurla dəf edən, Şəki, Urmiya xanlıqları və Kərim xan Zənd ilə toqquşan Qarabağ xanlığı zaman-zaman asılı hala düşsə də, öz müstəqilliyini qoruyub saxlamağı bacardı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 628 s.
2. Azərbaycan tarixi. Yeddi clddə. III cild. Bakı, 2007. 592 s.
3. Ağamalı Y. Qarabağ xanlığmm qonşu xanlıqlar və digər dövlətlərlə münasibətləri. Tar. elm. nam. dis. Bakı, 2002, s. 164.
4. Baharlı. Əhvalati-Qarabağ. Qarabağnamələr. II kit. Bakı, Yazıçı. 1991, s. 269-302.
5. Бакиханов А.А. Гюлистани-Ирам [редакция, комментарии, примечания и указатели академика 3.М.Буниатова ]. Баку, Элм, 1991, 304 с.
6. Бакиханов А.А. Сочинения, записки, письма. Баку, Элм, 1983, 344 с.
7. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. ч.III. Санкт-Петербург. 1869, 620 с.
8. Cavanşir Ə. Qarabağ xanlığının 1747-1806-cı illərdə siyasi vəziyyətinə dair. Qarabağnamələr. I kit. Bakı, Yazıçı, 1989, s. 149-183, s. 158.
9. Cəmşidov Ş. İbrahim xan Şuşa qalasmı nə üçün tərk etmişdi? "Azərbaycan gəncləri" qəz., 8 avqust 1974.
10. Dəlili H.Ə. Azərbaycanm cənub xanlıqları XVIII əsrin ikinci yarısmda. Bakı, Elm, 1979, s.144.
11. Əlizadə A.M. XIX əsrin I yarısında Şimali Azərbaycanda sənətkarlıq. Tar. elm. nam. dis. avtoreferatı. Bakı, 1996, s. 193.
12. Gəncə: tarixi oçerk. Bakı, Elm, 1994, s.152
13. İbn Əl-Əsir . Əl-Kamil fı-t-Tarix. - Bakı, 1959, III c.
14. Köçərli T. Qarabağ: yalan və həqiqət. Bakı, "Əbilov, Zeynalov və oğulları", 1998, s. 243, s. 115).
15. Qarabaği. M.C Qarabağ tarixi /Qarabağnamələr. I kit. Bakı, Yazıçı, 1989, s.104-148, ss.l 11-112.
16. Qarabağnamələr. II c. Tərtib edəni və çapa hazırlayam N.Axundov. Bakı, Yazıçı, 1991, 450 s., s.193.
17. Mirzə Adıgözəl bəy. Qarabağnamə /Qarabağnamələr. I kit. Bakı, s. 5-102, s. 36-37.
18. Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasebetlere dair arşiv belgeleri. I c. (1578-1914). Ankara. T.C. Başbakanlıq Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı. Yayım J\o4, 1992.

19. РВИА Российский Государственный Военно исторический Архив. Ф. 52, опись 1. дело 286, часть 1.

УДК 94(479.24)

*Илаха Ариф кызы Асадзаде,*
*Нурана Зохраб кызы Ганбарова*
*Гянджинский филиал НАНА*

ОТНОШЕНИЯ КАРАБАХСКОГО ХАНСТВА С СОСЕДНИМИ ГОСУДАРСТВАМИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Карабахское ханство, Панахали-хан, Шекинское ханство, Урмийское ханство, Керим-хан Зенд, Мухаммед-хасан-хан Каджар

В статье рассматривается возникновение Карабахского ханства, а также взаимоотношения основателя ханства Панахали-хана и шекинского хана Гаджи Челеби. Хан, сумевший привлечь на свою сторону ханства Гянджи, Иреван, Нахчыван, Гарадаг и Ардебиль, смог еще больше укрепить свою власть. Затрагиваются также такие вопросы, как походы Фатали-хана Афшара Урмийского, а также Керим-хана Зенда и Ага Мухаммед-шаха Каджара на территорию ханства.

UDC 94(479.24)

*Ilaha Arif Asadzadeh,*
*Nurana Zohrab Ganbarova*
*Ganja Branch of ANAS*

KARABAKH KHANATE RELATIONS WITH NEIGHBORHOOD STATES
*SUMMARY*

*Key words:* Karabakh Khanate, Panahali Khan, Sheki Khanate, Urmia Khanate, Karim Khan Zand, Muhammadhasan Khan Qajar

The article discusses the emergence of the Karabakh Khanate and the relationship between its founder, Panah Ali Khan, and the Shaki Khan, Haji Chalabi. The khan, who managed to win over the khanates of Ganja, Iravan, Nakhchivan, Karadagh, and Ardabil, succeeded in further strengthening his power. The article also touches upon the campaigns into the territory of the khanate by Fath Ali Khan Afshar of Urmia, as well as Karim Khan Zand and Agha Mohammad Shah Qajar.

***Daxil oldu: 05.07.2025-ci il***